**Xeyrulla DADAŞOV**

AMK-nın müəllimi
Ünvan: Bakı şəhəri, Yasamal r. Ə.Ələkbərov küçəsi 7

# AZƏRBAYCAN MUSİQİ TƏHSİLİNDƏ QARMON ALƏTİNİN TƏDRİS TARİXİ VƏ METODİKASI

***Xülasə:*** *Məqalədə xalq çalğı alətləri sırasına daxil edilmiş qarmon alətinin Azərbaycanda tədris tarixi araşdırılır. İbtidai, orta və nəhayət ali təhsil səviyyələrinə uyğun proqramların hazırlanması, alətin imkanlarına uyğunlaşdırılmış əsərlərin işləmə və köçürmələrdən ibarət məcmuələrin yaranması, "Qarmon məktəbi" dərsliklərinin əmələ gəlmə tarixi izlənilir. Qarmon üzrə mövcud araşdırma, metodoloji göstəriş, məcmuə və elmi işlərin biblioqrafiyası göstərilir.*
***Açar sözlər:*** *qarmon, metodika, qarmon məktəbi, köçürmə və işləmələr*

Azərbaycanda gənc nəslin böyük əksəriyyətinin musiqi təhsili alması onların gələcəkdə geniş dünya görüşünə, yüksək mədəni mənəviyyata sahib olmalarına təkan verib. Uşaq musiqi və incəsənət məktəblərində, musiqi kollecləri və musiqi texnikumlarında yiyələndikləri ifa bacarıqları, iştirak etdikləri konsertlər və bir çox mədəni tədbirlərin iştirakçısı olmaları, onların xalqımızın qabaqcıl və nüfuzlu nümayəndələri kimi yetişmələrinə zəmin yaratmışdır. Keçən əsrin əvvəllərindən musiqi məktəblərində xalq çalğı alətləri tar, kamança, qanun, balaban, nağara və digər musiqi alətlərinin tədrisi nəticəsində mahir ifaçılar yetişmiş, onlar xalqımızın mədəni məişətində, bayram şənliklərində, müxtəlif dövlət tədbirlərində və musiqi məclislərində, həmçinin xarici ölkələrdə milli musiqimizi məharətlə nümayiş etdirərək incəsənətimizi dünya səviyyəsinə qaldırmışlar.

Özünəməxsus səslənməsinə, tembr rəngarəngliyinə, geniş texniki imkanlarına və daşınılması asan olduğuna görə qarmon tez bir zamanda Azərbaycan xalqının məişətinə daxil olub. Qarmon solo və ansambl alətidir. Əvvəllər onu zərb alətləri – qaval və ya nağarada, yaxud da nəfəs alətləri – klarnet və balabanda müşayiət edirdilər. Tərkibində qarmondan başqa klarnet, balaban, gitara, qoşanağara və fortepiano səslənən instrumental qruplar da təşkil edilirdi. Lakin tərkibində qarmonçu, klarnetçi və nağaraçı olan ansambllar daha çox populyar idi. Qarmon rəqs melodiyalarını ("Mirzəyi", "Tərəkəmə", "İnnabı", "Turacı", "Qəşəngi", "Azərbaycanı", "Ənzəli və s.), mahnıları ("Yadıma düşdü", "Sev gilim", "Sevən könül", "Qurban adına", "Yeri dam üstə, yeri", "Muğana ceyran və s.) və instrumental muğamları (xüsusən "Bayatı-Qacar", "Zabul-Segah", "Çahargah", "Hümayun") solo ifa etdikdə daha yaxşı səslənir. "Lakin qarmon uzun zaman Avropadan iqtibas edilən alət sayılırdı. Ona görə də, ayrı-ayrı ifaçıların populyarlığına baxmayaraq, onlar dövlət strukturları tərəfindən diqqətdən kənar qalmışdılar. Dövrümüzdə də qarmon ifaçılığı, əvvəllərdə olduğu kimi, çox populyardır. Qarmonda alınan məftunedici, parlaq səsləri əyləncəli tədbir-

lərdə, toy və bayramlarda, bədii-özfəaliyyət kollektivlərin, vokal-instrumental və instrumental ansamblların çıxışlarında, bütün Azərbaycan xalq çalğı alətləri ansamblalarının tərkibində eşitmək mümkündür. Çox vaxt qarmonçular Şirvan, Tovuz-Şəmkir-Qazax-Gədəbəy və Borçalı zonalarının aşıq ansambllarının tərkibinə daxildirlər. Qarmon Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında aparıcı alətdir" (1, s.69-70).

Hələ musiqi sənətimiz tədris və təhsil sahəsində ilk addımları atarkən xalqın sevimlisi olduğundan qarmon aləti Üzeyir Hacıbəylinin də diqqətindən kənarda qalmamışdı. Bu barədə tədqiqatçı Əhsən Rəhmanlı daha geniş mülahizə yürüdür: "Üzeyirbəy ifaçılıq sənətimizin ayrılmaz hissəsi olan qarmon sənətini də sevir, dəyər verir və ifaçılara diqqət yetirirdi. O, qarmonçalanlardan Kərbalayi Lətif Hüseynoğlu (1876-1944), Kərbalayi Abutalıb Yusifov (1884-1937), Ələkbər Nəzərli (1882-1951), Əhəd Əliyev (1893-1942) və Teyyub Dəmirov (1908-1970) kimi sənətkarları yaxşı tanımış, onlarla əlaqə qurmuş və himayə etmişdi. Qarmonun səs çalarlarına, ecazkar, şirin tembrinə və bu alətin spesifik xüsusiyyətlərinə uyğun səslənən muğamlar və el havaları incə zövqlü, yüksək bədii təfəkkürlü bu böyük insanın maraq dairəsindən kənar deyildi. Əbəs deyil ki, o özünün "O, olmasın, bu olsun" musiqili komediyasında və "Arşın mal alan" operettasının toy səhnəsində qarmon sənətindən istifadə edirdi. Üzeyir bəy Əhəd Əliyevi Opera Teatrına dəvət etmişdi. Əhəd "Arşın mal alan" operettasının toy səhnəsində "Tərəkəmə" rəqs havasını şirin, incə xallar, xüsusi bəzəklər və ustalıqla çalırdı. Bu oyun havası Əhədin ifasında zəngin çalarlarla, əsər səviyyəsində səslənirdi. 1926-cı illərdə yaranmış Azərbaycan radiosunda Ü.Hacıbəylinin göstərişi ilə 1927-1933-cü illərdə Əhədin canlı ifasına, qarmonda muğamlar və oyun havaları səsləndirməsinə şərait yaradılırdı. Onun çox istedadlı musiqiçi olduğunu nəzərə alan Ü.Hacıbəyli 1931-ci ildə Müslüm Maqomayevlə (1885-1937) birlikdə Azərbaycanda yaratdığı ilk notlu Şərq orkestrinə Əhədi də dəvət etmişdi. İncəsənətimizin və musiqimizin bütün sahələrinə diqqət və qayğı göstərən Ü.Hacıbəyli həmçinin instrumental ifaçılığımızın və onun bir qolu olan qarmon sənətinin inkişafını bir an belə diqqətindən kənar saxlamamışdır" (23, s.45, 48). Bundan əlavə Müslim Maqomayevin "Şah İsmayıl" və Reynhold Qliyerin "Şahsənəm" operalarında, habelə Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində bəstəkarlar rəqs səhnələrinin yazılmasında təcrübəli qarmon ifaçılarının peşəkarlığından dəfələrlə yararlanıblar.

Qarmon alətinin Azərbaycandakı inkişafının artıq müstəqil və maraqlı, hadisələrlə dolu öz yolu var. Tədqiqatçı orqanoloq Abbasqulu Nəcəfzadə "Qıtqılıdı" xalq rəqsinin yaranmasını qarmon ilə əlaqələndirərək aləti daha çox qadın toylarında əvəzsiz çalğı aləti kimi işlənməsini qeyd edir. Qıtqılıdı rəqsinin yaranmasını içərişəhərli qarmonçalan Seyid Həsənin adı ilə bağlayaraq onu Azərbaycanda ilk qarmon müəllimi kimi xatırlayır (20, s.46). Artıq 1914-cü ildə Kiyev şəhərində "Ekstrafon" aksioner cəmiyyəti tərəfindən hazırlanmış, Kərbəlayi Lətifin ifasında yazılmış ilk qrammafon valı qarmon alətinin kifayət qədər geniş yayılması və bu dövrdə professional ifaçıların olmasından xəbər verir. Daha sonra, 1938-ci ildə isə kor Əhəd adı ilə

tanınan Əhəd Əliyevin ifasında "Segah" və "Çahargah" muğamları da qrammofon valına yazıldı (20, s. 49-50).

Xalq çalğı alətləri sırasında öz ecazkar və bənzərsiz tembrinə, olduqca məlahətli səs çalarlarına və eyni zamanda müxtəlif janrda olan əsərlərin muğam, mahnı və rəqslərin, bəstəkar əsərlərinin ifası üçün geniş imkanları olan qarmon aləti xalqımızın böyük sevgisini və məhəbbətini qazanmışdır. Qarmonun xalq çalğı aləti olaraq mədəni məişətimizdə oynadığı böyük rol hamı tərəfindən qəbul olunmuş həqiqətdir. Hələ XX əsrin əvvəlindən qarmon ifaçılarından Əhəd Əliyev, Teyyub Dəmirov, Məmmədağa Ağayev, Abbas Abbasov, Zakir Mirzəyev, Aftandil İsrafilov və bir çox digər ifaçılar xalqın və musiqisevərlərin diqqət mərkəzində olmuş və ən mahir ifaçılar kimi tanınmışdır. O illər musiqi təhsili sistemində qarmonun tədris olunmaması ifaçıların musiqi təhsili almasını mümkünsüz edirdi. Onlar yalnız öz istedadları və zehni qavrama bacarıqları sayəsində musiqi nümunələrini ifa etməyə nail olurdu.

Qarmonun bir alət olaraq xalq çalğı alətləri sırasında yer almasının öz tarixçəsi var. Qarmon artıq milli çalğı alətləri sırasına daxil edilərək saz, tar, kamança, dəf, nağara, balaban və s. xalq çalğı alətləri ilə bərabər tədqiqat obyektinə çevrilib. Qarmonun Azərbaycandakı inkişaf yolunu Abbasqulu Nəcəfzadə (20, s.44-51), Səadət Abdullayeva (1, s.65-71) orqanoloji tədqiqatlarında işıqlandırmış, Əhsən Rəhmanlı "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" adlı monoqrafiyasında qarmon alətinin ifaçılıq tarixini (21; 22, s.9-32), məşhur ifaçıların sənət yolunu (22, s.32-639) işıqlandırmış, Zakir Mirzəyev "Azərbaycan musiqisində qarmonun rolu və əhəmiyyəti" (2005) mövzusunda müdafiə edərək sənətşünaslıq elmi dərəcəsinə layiq görülmüş və araşdırmanın nəticəsində "Azərbaycan qarmonu" adlı kitabı (18) ərsəyə gəlmişdir.

Qarmonun ilkin vətəni qədim Çin sayılır. Hazırda işlətdiyimiz qarmon növünü 1822-ci ildə alman K.F.L.Buşman icad edib və alət Rusiyanın Tula şəhərində kütləsi şəkildə istehsal olunmağa başlayıb (20, s.45). "Azərbaycan musiqiçiləri Tula növlü qarmonlara üstünlük vermişlər. Sonralar Azərbaycan sənətkarlarının sifarişi ilə Tula növlü qarmonlarda bir sıra islahatlar aparılmış, nəticədə yeni növ – "Azərbaycan qarmonu" yaranmışdır. Bir çox xalqlar – farslar, ləzgilər, avarlar, çeçenlər, özbəklər, gürcülər, ruslar bu növ qarmonları Azərbaycan qarmonu adlandırırlar. Artıq çalğı alətləri sırasında Azərbaycan qarmonu da özünəməxsus yer tutub. Bu heç də təsadüfi olmayıb. Uzun illərdir (artıq 150 ilə yaxın) Azərbaycan sənətkarları istər ölkə daxilində, istərsə də xaricdə musiqi mədəniyyətimizi təbli edərkən tar, kamança, qaval, qanun, ud, saz, tütək, zurna, balaban, nağara, qoşanağara və s. alətlərlə yanaşı qarmondan da geniş istifadə edirlər" (20, s.47). Qarmonu artıq özününküləşdirmiş xalqımız nəinki xalq havaları, rəqsləri bu alətdə səsləndirmiş, hətta bəzi muğamların müşayiətində də qarmondan gen-bol istifadə etmişdir. Ustad xanəndələr Xan Şuşinski, Əbülfət Əliyev, Ağabala Abdullayev, Eynulla Cəbrayılov, Ramiz Hacıyev, Qulu Əsgərov, Əliyar Əmirov, Süleyman Abdullayev, Baba Mahmudoğlu, Arif Babayev, Sabir Mirzəyev, Məmmədbağır Bağırzadə, Zaur Rzayev muğam dəstgahları, şöbələrini toy məclislərində məhz qarmon müşayiəti ilə səsləndiriblər (22, s.669).

Əgər Azərbaycanda ifaçı-qarmonçuların populyarlıq xronologiyasını nəzərdən keçirsək, onda XIX əsrin sonu və XX əsrin əvvəllərini İsi bəy, Abışbəy, Kərbəlayı Lətif, Məşədi Əli, Xədicə Musaxanova, Abutalıb Yusifov və Ələkbər Nəzərlinin adları ilə əlaqələndirmək olar. Keçən əsrin 20-30-cu illərində Əhəd Əliyevlə yanaşı Teyyub Dəmirov, Yusif Yusifov, Fatma Səfərova, Kamrabəyim Hüseynova və b. Populyar idilər. Azərbaycanda qarmon sənətinin yüksəliş dövrünü keçən əsrin 50-80-ci illərini hesab etmək olar. Bu vaxt öz ustalıqları ilə Məmmədağa Ağayev, Abbas Abbasov, Qızxanım Dadaşova, Kübra Əbilova, Hacıbala Dadaşov, Səfərəli Vəzirov, Abutalıb Sadıqov, Teyyub Teyyuboğlu, Bədəl Bədəlov, Səttar Hüseynov, Firuz Eyvazov, Adil Hüseynov, Vaqif Şıxıyev, Türrə Hüseynova, Həmid Haqverdiyev və b. seçilirdilər. Respublikanın rayon mərkəzlərində İsfəndiyar Coşqun, Mətləb Abdullayev (Gəncə), Rza Şıxlarov, Əflatun Ağayev, Sadıq Sadıqov, Aslan İlyasov (Sal yan), Mahmud Xalaoğlu (Lənkəran), Əli Quliyev, Yusif Yusifov, Yelmar Zeynalov (Ağdam), Bəylər Əhmədov (Füzuli), Mehdi Vəlixanov (Sabirabad), İsa Səfərov (İrəvan) kimi çoxlu sayda istedadlı ifaçı-qarmonçular pleyadası yetişmişdi. Bizim günlərdə Aftandil İsrafilov, Zakir Mirzəyev, Gövhər Rzayeva, Kamil Vəzirov, Ənvər Sadıqov, Gülbahar Şükürlü, Gülbahar Məmmədzadə və baş qa larının xalq kütləsi arasında qarmonun populyarlaşmasında əhəmiyyətli dərəcədə rolu olmuşdur. İran Azərbaycanından olan Rəhman Əsədullahi də böyük şöhrət qazanmışdır (1, s.65-71).

Bu gün respublikada qarmon ifaçılığı daha yüksək səviyyəyə yetişib, çünki ifaçıları xalq musiqisi, rəqslər və muğamlardan savayı bəstəkar musiqisini də ifa edir və daha yüksək ifaçılıq səviyyəsinə can atırlar. Zakir Mirzəyev Tofiq Bakıxanovun üçhissəli simfonik orkestr üçün "Birinci Konsert"ini, "Segahsayağı"sını və "Rondo"sunu, Vyanada Üzeyir Hacıbəylinin büstünün açılışına həsr olunan konsertdə isə Volfqanq Motsart və Üzeyir Hacıbəylinin əsərlərini ifa etmişdir. Məşhur dirijor və bəstəkar, maestro Niyazi Zakir Mirzəyevin virtuoz ifasına görə onu "Qarmonun Paqaninisi" adlandırırdı. Azərbaycan melodiyalarını qarmonda çalanda caz elementlərindən ilk dəfə istifadə edən Ənvər Sadıqovun ifası da xalq tərəfindən sevilir və rəğbətlə qarşılanır. Qarmon üçün bəstəkarlar – Süleyman Ələsgərov xüsusi olaraq "Lirik pyes" və "Skerso", Tofiq Bakıxanov qarmon və piano üçün "Sözsüz mahnı", "Daimi hərəkət", Aygün Səmədzadə "Dağlı rəqsi" yazmışlar. Qarmonçu Zakir Mirzəyev qarmon üçün "Muğam və rəqs" kompozisiyasını bəstələyib.

Azərbaycanda özünəməxsus qarmonçular məktəbi formalaşıb. Onun inkişafında pedaqoq-qarmonçular Bədəl Bədəlov, Xeyrulla Dadaşov, Əlövsət Piriyev, Baxşəli Əliyev, Əhsən Rəhmanlı, Zakir Mirzəyev və b. böyük rol oynayıblar. Alətin təkmilləşməsi üzərində işlər indi də davam edir. Hüseyn Həsənov (Hüseyn Bakılı) tərəfindən çərək notları hasil etməyə imkan verən qarmon yaradılıb. Ənvər Sadıqovun məsləhəti ilə Zahir Dadaşov "do" tonallığında üçoktavalı qarmon hazırlayıb. Zakir Mirzəyev tərəfindən soltərəfli klaviaturalı qarmon patentləşdirilib. Göründüyü kimi, qarmon Azərbaycan musiqi mədəniyyətinə möhkəm və ayrılmaz surətdə daxil olmuş və artıq yüz ildən artıqdır ki, təkmilləşərək, onda öncül yerlərdən birini tutur (1,s.71).

Qarmon alətinin tədrisi Bakı Mədəni Maarif Texnikumundan (indiki Bakı Humanitar Kolleci) başlayıb. 1957-58-ci illərdən başlayaraq qarmon ifaçıları "Klub işçisi – özfəaliyyət xor dirijoru" ixtisası üzrə 4 illik təhsil ala bilirdi. Amma onlar heç bir not savadı və musiqi təhsili olmayan gənclər idi. Burada solfecio, musiqi ədəbiyyatı və başqa nəzəri fənlər keçilirdi. Uzun müddət, bu texnikum qarmon ifaçıları yetişdirmək işini öz üzərinə götürmüşdü. Ali savad almaq istəyənlər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin xalq çalğı alətləri və ya instrumental ifaçılıq fakültələrinə, yaxud Pedaqoji Universitetin musiqi, nəğmə müəllimi, musiqi sənəti fakültələrinə gedə bilərdi. Azərbaycanın digər rayon və bölgələrində də Musiqi Texnikumlarında qarmon sinfi tədricən açılmağa başlamışdı. İlk açılan siniflərdən Ağdam Musiqi Texnikumunu xatırlamaq və bu işdə Əvəz Rəhmətovun zəhmətini qeyd etmək lazımdır. Onu da deməliyik ki, hələ 1958-ci ildə Mədəniyyət Nazirliyi Gəncə səhər 1 saylı uşaq musiqi məktəbində də qarmon sinfinin açılmasına icazə vermişdi. Şəki, Şuşa, Gəncə, Sumqayıt, Naxçıvan və Lənkəran Musiqi Texnikumlarında (Kolleclərində) qarmon sinfi artıq 80-ci illərdə fəaliyyətə başlamış və professional biliklərə malik ifaçılar yetişdirmişdir. Azərbaycan Milli Konservatoriyasının tərkibində Musiqi Kollecində qarmon ixtisasının tədrisi 1992-ci il, Əvəz Rəhmətovun Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna direktor təyin ediləndən sonra başlayıb. Bu gün Musiqi Kollecində yüksək səviyyəli qarmon tədrisi mövcuddur (22, s. 640-645). Bu günün tələbələri artıq nüfuzlu müsabiqə və festivallarda yer alaraq başqa alətlərdən geri qalmır və yüksək səviyyə nümayiş edirlər.

Bu gün qarmon məktəbinin səviyyəsi əlbəttə ki, ifaçıların bilavasitə pedaqoji fəaliyyəti ilə əlaqədardır. Əhsən Rəhmanlı monoqrafiyasında qarmon tədrisinə bir fəsil həsr edərək alətin tədrisi, mövcud metodoloji materialların aydın təsnifatını vermişdir (22, s.640-674). Abbasqulu Nəcəfzadənin tədqiqatına əsasən qarmon aləti üçün ilk dərs vəsaiti pedaqoji elmlər doktoru, professor Fərahim Sadıqov və pedaqoji elmlər doktoru, professor Oqtay Rəcəbovun Azərbaycan Maarif Nazirliyinin sifarişi ilə 1985-ci ildə birlikdə hazırladıqları kitab sayılır (20, s.50). Əlbəttə, bu dərs vəsaiti (27) qarmon məktəbi şagirdlərinə böyük kömək oldu.

Qarmonun musiqi məktəblərində tədrisi 1960-cı illərin əvvəllərindən etibarən başlayıb. Xalqımızın qarmon alətinə olan sevgisi və istəyi həmçinin, bu alətdə ifa etmək arzusunda olanların çoxsaylı olmasını nəzərə alaraq uşaq musiqi və incəsənət məktəblərində qarmonun tədrisi təşkil olunur. Lakin bu alətin tədris olunması üçün heç bir dərs vəsaitinin və ixtisaslı müəllim kadrlarının olmaması tədrisi çətinləşdirirdi. Müəllimlər sərbəst yolla mahnı, rəqs, rəng və digər musiqiləri şagirdə yaddaş və zehni yolla öyrətməli idi. Əlbəttə ki, bu metodla qarmonun tədrisi müvəqqəti idi. Qarmonun tədrisi təşkil olunan illərdə bir çox musiqi məktəblərində tar və ya kamança sinfi üzrə müəllimlərin bilik və təcrübəsindən istifadə etmək məqsədi ilə onlar qarmonun tədrisinə cəlb olunurdu. Bununla da bu müəllimlərin köməyi, göstərişləri, metodiki tövsiyələri qarmon sinfi müəllimlərinə və şagirdlərə təhsildə köməklik edirdi.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin musiqi təhsili üzrə Elmi metodik mərkəzi mütəxəssislərinin tədris ilinin I və II yarısında qarmon ixtisası

müəllimləri üçün təşkil etdiyi metodik seminarlar müəllimlərin bilik səviyyəsini artırmaq, metodik göstərişlərlə onlara tədrisdə köməklik göstərmək və mövcud olan nöqsanları aradan qaldırmaq məqsədi daşıyırdı. Seminarlarda müəllimlərin iştirakı vacib hesab olunurdu. Müəllimlər onlara edilən göstərişlərə və tövsiyələrə əməl etməklə tədricən lazım olan biliklərə yiyələnir. Beləliklə, müəllimlərin metodiki və əməli bilikləri nəzərə çarpacaq dərəcədə yüksəlir ki, bu da onların fəaliyyətlərinə təsir edirdi. Artıq qarmon sinfi müəllimləri seminarlarda çıxış edir, öz fikirlərini, məqsədlərini və hətta məsləhətlərini verməyə başlayırlar. Get-gedə müəyyən qədər təcrübəyə yiyələnən müəllimlərin seminarlarda aktivliyi nəzərə çarpmağa başlayır.

Bir neçə il keçir və növbəti seminarların birində (1983-cü il) metodika kabinetinin rəhbərliyi qarmon sinfi üçün tədris proqramının tərtib olunmasını təklif edir. Müzakirələrdən sonra proqramın tərtib olunmasını Səid Rüstəmov adına 13 saylı uşaq musiqi məktəbinin, artıq bir neçə il kifayət qədər iş təcrübəsi toplamış və seminarlarda müntəzəm aktiv iştirak edən müəllim Xeyrulla Dadaşova həvalə edir. X.Dadaşov müxtəlif musiqi alətləri üçün tərtib olunmuş proqramları nəzərdən keçirir, alətin sağ və sol əllə ifa imkanlarını nəzərə alaraq qarmon üçün proqramı tərtib edir. 1984-cü ildə "Qarmon sinfi üçün tədris proqramı" adlı ilk dərs vəsaiti hazırlanır və müzakirə olunması üçün metodik kabinetə təqdim olunur. Metodistlərin və qarmon sinfi müəllimlərinin iştirakı ilə aparılan müzakirədə proqram təsdiq olunur və çap edilməsi üçün hazırlanıb mətbəəyə göndərilir. Beləliklə, 1984-cü ildə qarmon üçün tərtib olunan ilk dərs vəsaiti tezliklə hazır olaraq müəllimlərə çatdırılması üçün musiqi məktəblərinə göndərilir.

Qarmonun tədrisində ilk dərs vəsaiti olan "Qarmon sinfi üçün tədris proqramı" Respublikanın bütün ərazilərində fəaliyyət göstərən musiqi məktəbləri qarmon sinfi müəllimlərinin böyük razılığına və sevincinə səbəb olur. Belə ki, bu proqramdan istifadə edərək müəllimlərin mövzuların ardıcıllığını, proqrama uyğun tövsiyə olunan və repertuarda göstərilən hər sinfə aid muğam, rəqs, dəraməd, rəng, mahnı və s. nümunələrini sadədən mürəkkəbə doğru prinsipinə uyğun tədris etməsinə zəmin yaradırdı. Proqramın uğurlu tərtibatı və tez bir zamanda özünü doğrultması sayəsində rəhbərlik X.Dadaşova daha böyük məsuliyyət tələb edən "Qarmon məktəbi" dərsliyini hazırlamağı təklif edir. X.Dadaşov bütün təcrübəsini, biliyini və bacarığını səfərbər edərək dərsliyin hazırlanmasına başlayır və bu prosesdə mövcud olan "Akkordeon məktəbi", "Bayan məktəbi" dərsliklərini nəzərdən keçirir.

Nəhayət, "Qarmon məktəbi" dərsliyi üzərində iki il çalışaraq onu 1986-cı ildə tamamlayır və metodik kabinetə təqdim edir. Dərslik yoxlanıldıqdan və müəllimlərin müzakirəsindən keçdikdən sonra Mədəniyyət Naziri hörmətli Zakir Bağırova dərsliyin hazır olması barədə məlumat verilir. Bir neçə gündən sonra metodik kabinetin rəhbər nümayəndəsi və dərsliyin müəllifi nazirin dəvəti ilə onun qəbulunda olur. Nazir dərsliyi nəzərdən keçirərək çap olunmasına icazə verir. Artıq 1988-ci ildə dərslik çap olunması üçün plana salınır və Şirvan nəşriyyatına göndərilir.

Lakin 1988-ci ildə Respublikada baş verən siyasi hadisələr hər sahəyə öz mənfi təsirini göstərdiyi kimi, mətbuatdan da yan keçməmişdi. Bu səbəbdən "Qarmon mək-

təbi” dərsliyinin çap olunması 11 il gecikərək nəhayət 1999-cu ilin avqust ayında nəşr olunur. Bir müddət sonra Natiq Rəsulovun (24), Sona İrzaquliyevanın (15), Əli Bayramovun (5) və Zakir Mirzəyevin (16) “Qarmon məktəbi” dərslikləri də nəşr olunur.

Ötən illər ərzində qarmonun tədrisində istifadə olunan və qarmon üçün köçürülən müxtəlif janrları əhatə edən əsərlər yaranmağa başlayırdı. Ayrı-ayrı musiqi məktəbləri qarmon sinfi müəllimlərinin təşəbbüsü ilə aparılan köçürmələr, əsərlər qıtlığının aradan götürülməsi məqsədi ilə yerinə yetirilirdi. Beləliklə, qarmonun tədrisində əvvəlki illərlə müqayisədə əsərlərin bolluğu yaranır.

Təhsil Nazirliyinin göstərişi ilə Asəf Zeynallı adına Bakı Dövlət Musiqi Texnikumunun xalq çalğı alətləri şöbəsində qarmonun tədrisi təşkil olunduqda bu bir çox ifaçıların arzusunun reallaşması idi. O zaman müxtəlif illərdə musiqi məktəblərinin qarmon sinfini bitirmiş və təhsilini davam etdirmək istəyində olan gənc musiqiçilər texnikumun tələbəsi olmaq arzusunda idilər. Texnikuma qəbul olan gənc musiqiçilər təhsil alacaqları müddətdə təcrübəli müəllimlərin yetirmələri olacaq və özləri də təhsillərini başa vurduqdan sonra gələcəkdə həm mahir ifaçı, həm də müəllim vəzifəsində çalışmalı olacaqdılar. Texnikuma müəllim vəzifəsində çalışmaq üçün dəvət olunan ixtisas not və ixtisas muğam fənni müəllimlərinin məsuliyyətlə öz işlərini yerinə yetirmələri çox vacib idi. Axı tələbələr artıq formalaşmış ifaçı musiqiçilər idilər.

Musiqi kolleclərində və texnikumlarda təhsil alan tələbələr iri, kiçik və orta həcmli əsərlər, konsertlər, fantaziyalar, rapsodiyalar, ayrı-ayrı Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri, proqramda təklif olunan nümunələri öyrənib ifa etməli idilər. Repertuarda tədris olunası üçün təklif olunan əsərlər qarmon üçün işlənib köçürülməli və fortepianonun müşayiəti ilə ifa olunmalı idi. Qarmonun kökü ilə fortepianonun kökü arasında yarım ton fərq olması (qarmon *in H*) ifa olunan əsərlərin fortepiano partiyalarının yarım ton aşağı köçürülməsini tələb edir. Kollecin təcrübəli ixtisas not fənni müəllimləri artıq bir neçə il ərzində köçürmələrlə bağlı apardıqları iş nəticəsində bütün mövcud olan əsərlərin köçürmələri demək olar ki, tamamlanmış və qarmonun fortepiano ilə müşayiəti üçün hazır olmuşdur.

Tələbələrin müsabiqələrdə, konsertlərdə və ya hər hansı bir tədbirdə fortepianonun müşayiəti ilə etdikləri uğurlu çıxışları dinləyicilərin alqışlarına səbəb olur və bir qayda olaraq onlar fəxri yerlərdən birinə və ya diplomlara layiq olur ki, bu da müəllimlərin zəhmətindən və əməyindən irəli gəlirdi.

Azərbaycan xalqının mədəni məişətində ən sevimli xalq çalğı aləti olan və digər çalğı alətlərindən məlahətli tembri, ecazkar səsi və müxtəlif janrda olan əsərlərin, muğam və rəqslərimizin gözəl ifa olunması ilə seçilən sevimli qarmonumuz ürəklərdə özünə layiqli yer tutmuşdur. Qarmon demək olar 60 ilə yaxın müddətdə musiqi məktəblərində, kollec və texnikumlarda həmçinin, ali məktəblərdə tədris olunması uğurlu hesab edilməlidir. Belə ki, ötən müddət ərzində xeyli dərs vəsaitləri, o cümlədən “Qarmon məktəbi” dərslikləri (5, 8, 9, 12, 15, 16, 17, 24), qarmon ilə fortepiano üçün işlənmiş əsərlər məcmuələri (7, 10, 25, 26, 27), müxtəlif texniki çalışmalar (6), xalq musiqisi və muğamların işləmələri (13, 19, 30) və s. tədrisdə istifadə olunan əsərlər bolluğunu kifayət qədər təmin edirdi.

Qarmon aləti ilə bağlı respublikanın əməkdar artisti, ustad ifaçı Zakir Mirzəyevin yazdığı və uğurla müdafiə etdiyi elmi işi (18), qarmon ifaçıları və qarmon aləti ilə bağlı bir neçə kitabın müəllifi, uzun illər muğam ixtisası üzrə müəllim kimi çalışan tədqiqatçı Əhsən Rəhmanlının elmi işi və araşdırmaları (21, 22, 23) və Azərbaycan Milli Konservatoriyasının dosenti Aydın Əliyevin elmi işinin məhz qarmon üzrə olması artıq qarmon tədrisinin daha yüksək səviyyəyə keçməsinə sübutdur. Bundan əlavə qarmonun tədrisi illərində öz gözəl ifaları ilə xalqın rəğbətini və sevgisini qazanan tanınmış ifaçılarımız dövlətimiz tərəfindən fəxri adlara layiq görülməsi də təkcə ifaçılıq ənənələrinin deyil, həmçinin qarmon tədrisi metodikasının doğru və düzgün istiqamətdə olmasının göstəricisidir.

Beləliklə, qarmonun tədris olunduğu ötən 60 illik zaman kəsiyi təhsilin düzgün istiqamətdə olduğunu göstərmişdir. Bu illər ərzində qarmonun tədrisində geniş istifadə olunan, qarmon ilə fortepiano üçün 50-dən çox əsər köçürülmüş və məcmuə şəklində nəşr etdirilmişdir. Bu əsərlər sırasında S.Rüstəmovun tar ilə fortepiano üçün 1№li Konserti, İ.S.Baxın və Q.F.Hendelin 10 polifonik pyes kimi daha mürəkkəb əsərlər də yer alıb. Əldə olunan çoxsaylı nailiyyətlər dövlət tərəfindən dəstəklənərək 2019-cu ildə musiqisevərlərin və ifaçıların ən böyük arzusunun və sevincinin reallaşması ilə nəticələndi. Azərbaycan Milli Konservatoriyasının Xalq Çalğı alətləri ifaçılığı kafedrasında qarmonun tədrisi təşkil olunur. Artıq qarmon ifaçılığı daha yüksək, ali tədris mərhələsinə daxil olduğundan yeni tələblərə uyğun proqramların yazılması, yeni mürəkkəb əsərlərin ifası, köçürmə və işləmələrin sayının artırmaqla repertuarın genişlənməsi bu gün pedaqoji kollektivin qarşısında duran yeni tələblərdir.

**ƏDƏBİYYAT:**


1. Abdullayeva S.A. Azərbaycan çalğı alətləri dünyanı valeh edir. Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2016, 288 s. URL:http://anl.az/el/musiqi_kitabxanasi/kitablar/2016/Azf-293104.pdf
2. Azərbaycan xalq çalğı alətləri ixtisasının qarmon sinfi üçün proqram /AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, Orta İxtisas Təhsili üzrə tədris-metodika kabineti ; Soltan Hacıbəyov ad. Sumqayıt Orta İxtisas Musiqi Məktəbi ; tərt. ed. Ə. M. Rəhmətov ; red. M. B. Quliyev Bakı: [V. İ. Lenin ad. APİ], 1984.
3. Azərbaycan çalğı alətləri. URL:https://azerbaijan.az/related-information/40
4. Bakalavr pilləsi qarmon ixtisası üçün ixtisas-not fənni üzrə Proqram. Tərtibçi: Əzizov R.M., Dadaşov X.İ. B.: Ecoprint, 2019, 32 s.
5. Bayramov Ə. Qarmon məktəbi. B.: R.N.Novruz-94, 2004
6. Bayramov Ə. Qarmon üçün texniki məşğələlər. B.: 2006
7. Bayramov Ə. Qarmon üçün ən gözəl melodiyalar. B.: 2006
8. Dadaşov X.İ. Qarmon məktəbi. Uşaq musiqi və incəsənət məktəblərinin qarmon sinifləri üçün dərslik. B.: Şirvannəşr, 1999, 92 s. URL:http://web2.anl.az:81/read/page.php? bibid= vtls000236643
9. Dadaşov X.İ. Qarmon məktəbi. Uşaq musiqi və incəsənət məktəblərinin qarmon sinifləri üçün dərslik /Xeyrulla Dadaşov; Xüsusi red. B.Hüseynli; Naşir. Q.İsabəyli.- Bakı: Şirvannəşr, 2004. 92 s. URL:http://web2.anl.az:81/read/page.php?bibid= vtls000007893

10. Dadaşov X.İ. Qarmon ilə fortepiano üçün işlənmiş əsərlər məcmuəsi. B.: MBM, 2015, 271 s.
11. Qarmon ixtisası üçün ixtisas (not) fənni üzrə Proqram. (AMK-nın nəzdində Musiqi Kolleci tələbələri üçün) Tərtibçi: Dadaşov X.İ. B.: Mütərcim, 2013, 12 s.
12. Qəmərlinski C. Qarmon məktəbi, B.: Çaşıoğlu, 1999,
13. Haşımov A. 10 zərbi muğam. Qarmon sinfi üçün muğam fənni üzrə vəsait. B.: 2007.
14. İrzaquliyeva S. Musiqi məktəblərinin qarmon sinfi üçün proqram. B.: 1976.
15. İrzaquliyeva S. Qarmon məktəbi. B.: Şirvannəşr, 1999.
16. Mirzəyev Z. Qarmon məktəbi. Qarmon ilə fortepiano üçün dərs vəsaiti III hissə /Z. Q. Mirzəyev; red. M. Əhədzadə, A. Əliyev; rəyçilər. T. Bakıxanov, N. Kazımov, R. Quliyev; məsləhətçilər. S. Hacıyev [və b.] B.: Adiloğlu, 2008. 116 s. URL:http://web2.anl.az:81/read/page.php?bibid=vtls000072333
17. Mirzəyev Z. Qarmon məktəbi. B.: Adiloğlu, 2008. 144 s. URL:http://web2.anl.az:81/read/page.php?bibid=vtls000072106
18. Mirzəyev Z. Azərbaycan qarmonu. B.: Adiloğlu, 2007, 162 s.
19. Mustafayev Z. Azərbaycan xalq rəqsləri məcmuəsi. B.: 1999
20. Nəcəfzadə A. Xalq çalğı alətlərinin tədrisi metodikası. Dərs vəsaiti. B.: MBM, 2007, 68 s. Azərbaycan qarmonu. s.44-51
21. Rəhmanlı Ə. M. Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi B.: Araz, 2008. 386 s. URL:http://web2.anl.az:81/read/page.php?bibid=vtls000043493
22. Rəhmanlı Ə. M. Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi [dərs vəsaiti] /Ə. M. Rəhmanlı; elmi red. S.Abdullayeva; B.: MBM, 2014. 704 s. URL:http://web2.anl.az:81/read/page.php?bibid=vtls000508176
23. Rəhmanlı Ə. M. Üzeyir Hacıbəylinin qarmon sənətinə münasibəti. // “Konservatoriya” jurnalı, 2017-1, s.45-49 URL:http://konservatoriya.az/wp-content/uploads/2017/03/Konservatoriya-2017-1-45-49.pdf
24. Rəsulov N. Qarmon məktəbi. B.: Çaşıoğlu, 1999, 102 s. URL:http://web2.anl.az:81/read/page.php?bibid=vtls000120230
25. Rəsulov N. Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi. I kitab (ikinci nəşr). B.: Təhsil, 2014, 60 s. URL:http://music.mctgov.az/M0/69/2017/11/documents/20171121_150245_1511294565_44a0f4ddb9.pdf
26. Rəsulov N. Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi. II kitab (ikinci nəşr). B.: Təhsil, 2014, 108 s. URL:http://music.mctgov.az/M0/69/2017/11/documents/20171121_150326_1511294606_638aada3dd.pdf
27. Sadıqov F., Rəcəbov O. Qarmon öyrənənlərə kömək. B.: AEA-nın mətbəəsi, 1985.
28. Səmədov X. Orta ixtisas musiqi müəssisələrində “Qarmon aləti üzrə muğam fənninin fərdi tədrisi” fənn proqramı. B.: 2005
29. Uşaq musiqi məktəblərinin qarmon sinfi üçün Proqram. Tərtibçi: Dadaşov X.İ. B.: Krasnıy Vostok, 1984, 24 s.
30. Zakir Mirzəyevin qarmon üçün rəqslər məcmuəsi. Rəqslərin orijinal ifadan nota köçürən: Xeyrulla Dadaşov. B.: Mütərcim, 2018, 128 s. URL:http://web2.anl.az:81/read/page.php?bibid=vtls000637681

**Хейрулла Дадашев**
Преподаватель АНК

## ИСТОРИЯ И МЕТОДИКА ОБУЧЕНИЯ ИГРЫ НА ГАРМОНИ В МУЗЫКАЛЬНОМ ОБРАЗОВАНИИ АЗЕРБАЙДЖАНА

***Резюме:*** *В статье рассматривается история преподавания игры на гармони в Азербайджане, который уже включен в список народных инструментов. Прослеживается история создания программ начального, среднего и высшего образования, учебников «Школа гармони», а также создание сборников переложений из произведений, адаптированных к возможностям инструмента. Приведена полная библиография существующих исследований, методических указаний, сборников переложений и научных работ по инструменту гармонь в Азербайджане.*
***Ключевые слова:*** *гармонь, методология, школа гармони, переложения*

**Heyrulla Dadashev**
Lecturer of ANC

## HISTORY AND METHODS OF TEACHING PLAYING ON ACCORDION IN THE MUSICAL EDUCATION OF AZERBAIJAN

***Summary:*** *The article discusses the history of teaching the accordion in Azerbaijan, which is already included in the list of folk instruments. The author traces the history of creating programs of primary, secondary, and higher education, textbooks "School of accordion", as well as the creation of collections of arrangements of works adapted to the capabilities of the instrument. A complete bibliography of existing research, methodological guidelines, collections of transcriptions and scientific works on the accordion instrument in Azerbaijan is provided.*
***Keywords:*** *accordion, methodology, accordion's school, arrangements*

**Rəyçilər:** AMK-nın professoru Əzizov Ramiz
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Zakir Mirzəyev